BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№3 Humanitar elmlər seriyası 2009

# XIX ƏSRİN SONU – XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCANDA ZEMSTVO ÖZÜNÜİDARƏETMƏSİNİN TƏTBİQİ ÜZRƏ HAZIRLIQ İŞLƏRİ

**X.C.İSMAYILOV**
***Bakı Dövlət Universiteti***
***xayyam-ismail@mail.ru***

*Məqalədə XIX əsrin sonlarında – XX əsrin əvvəllərində yerli özünüidarəetməsinin əsas formalarından biri olan zemstvo özünüidarəetmənin tətbiqindən və bu sahədə aparılan islahatlardan bəhs olunur. Zemstvo təsisatları haqqında əsasnamənin Cənubi Qafqaz diyarına şamil edilməsinə dair layihənin hazırlanmasına dair məlumatlar məqalədə əksini tapmışdır.*

XIX əsrin ikinci yarısında Azərbaycanın da tərkibinə daxil olduğu Rusiya imperiyasında qabaqcıl Avropa ölkələrinə uyğunlaşdırılma məqsədini güdən yerli özünüidarə islahatları dalğasında nümayəndəlik elementlərinin tətbiqinə aşağıdan – zemstvolardan başlanılmışdı. Dövlət yerli səviyyədə hakimiyyəti və məsuliyyəti zemstvo cəmiyyətləri ilə bölüşdürməyə cəhd göstərmiş və 1864-cü il yanvarın 1-də «Quberniya və qəza zemstvo təsisatları haqqında əsasnamə» (12, № 40457) qəbul olunaraq dərc edilmişdi. Bir neçə il ərzində onun qüvvəsi ölkənin avropa hissəsinin 50 quberniyasından 34-nə şamil olunmuşdu. İslahat bütövlükdə 1867-ci ildə başa çatdırılmışdı. İslahatın konsepsiyası özünüidarəetmənin ictimai-təsərrüfat nəzəriyyəsi məcrasında inkişaf edirdi ki, bu da yerli həyatın ictimai-təsərrüfat məsələlərini həll etməli olan qeyri-dövlət hakimiyyət orqanlarının yaradılmasını nəzərdə tuturdu. 1864-cü il Əsasnaməsinə müvafiq olaraq müxtəlif təbəqələrin (zadəganlar, şəhər əhli və s.) nümayəndələri ilə yanaşı, şəxsi azadlıq əldə etmiş kəndlilər (əsasən keçmiş mülkədar kəndliləri) də zemstvo özünüidarəsi (quberniya və qəza yığıncaqları və upravaları) vasitəsilə yerli əhəmiyyətli iqtisadi və sosial məsələlərin həllində iştirak etməli idilər, yəni yerli əhalinin bütün təbəqələrinə idarəetmədə iştirak hüququ verən zemstvolar ümumsilki səciyyə daşıyırdı.

Zemstvo təsisatlarının səlahiyyətləri dairəsinə qəza mülklərinin idarəçiliyi, zemstvoya aid binaların, tikililərin və yolların quruluşu, saxlanılması və təmiri, mükəlləfiyyətlərin və vergilərin yığılması, ərzaq təminatı, zemstvo xeyriyyə təşkilatlarının idarə edilməsi, yerli ticarət və sənayeyə qayğı göstərilməsi, təhsil və səhiyyənin himayə edilməsi, barışıq hakimlərinin seçilməsi və s. məsələlər daxil idi. Mülki-hüquqi münasibətlərə daxil olarkən zemstvo yığıncaqları hüquqi şəxs səlahiyyətlərindən istifadə edirdilər. Upravalar quberniya və ya qəza zemstvolarının tam hüquqlu nümayəndəsi qismində çıxış edirdilər. Onlar əmlak əldə etmək və özgəninkiləşdirmək, müqavilələr bağlamaq, kontragentlərlə danışıqlara daxil olmaq, mülki iddialar təqdim etmək və əmlak işlri üzrə məhkəmədə cavabdeh olmaq hüquqlarına

malik idilər. Zemstvo bələdiyyəsi tərəfindən bağlanılan kontraktlar müvafiq zemstvo üçün məcburi səciyyə daşıyırdı.

1890-cı il iyunun 12-də də zemstvo təsisatları haqqında yeni Əsasnamə (13, № 6927) qəbul edildi. Bu qanun seçki qrupları üzrə silk bölgüsü prinsipini bərpa etdi və zadəganların nümayəndəliyini artırmış oldu. Kənd seçki qurultayları ləğv olundu, ikipilləli sistem, yəni qlasnıların nahiyə yığıncaqları tərəfindən yığıncağın 1/3-dən artıq olmayan sayda seçdiyi seçkiçilər vasitəsilə seçilməsi qaydası aradan qalxdı, qlasnıların təyinatı nahiyə yığıncaqları tərəfindən seçilən nümayəndələr sırasından qubernator tərəfindən aparıldı. Uprava üzvlərinin seçkililiyi prinsipi ləğv edildi və əvəzində təsdiqlənmə qaydası tətbiq olundu ki, bunun da nəticəsində həmin şəxslər dövlət qulluğunda çalışanlar kateqoriyasına aid edildilər.

1890-cı il Əsasnaməsi ilə inzibati idarəçiliyin yerli işlərə müdaxiləsinin qanuniləşdirilməsi zemstvoların timsalında yerli özünüidarəetməni heçə endirmiş və zemstvoları əhalidən yığılan əlavə yığımların hesabına mövcud olan daha bir «rəhbərlik edən» üstquruma çevirmişdi. Bu isə zemstvoların fəaliyyətində dövləti başlanğıcın üstünlük təşkil etməsi, bu qurumlara «dövlət əhəmiyyətinin» verilməsi ilə şərtləndirilirdi.

Zemstvo təsisatlarının icra hakimiyyəti haqqında məsələni nəzərdən keçirərkən, məcburi və sərbəst icra hüququnu fərqləndirmək lazımdır. Belə ki, nə 1864-cü il, nə də 1890-cı il əsasnamələrinə görə zemstvo icra orqanları fiziki şəxsləri öz qərarlarının icrasına məcbur etmək hüququna malik deyildilər. Zəruri hallarda zemstvolar hökumət orqanlarının yardımına müraciət etməli idilər. 1864-cü il Əsasnaməsinə görə zemstvo icra orqanları zemstvoların özlərindən tam və müstəsna asılılıqda idilərsə, 1890-cı il Əsasnaməsi zemstvo bələdiyyələrini bilavasitə qubernatorun tabeçiliyinə vermişdi.

Təəssüflə qeyd edilməlidir ki, baxılan dövrdə bütövlükdə Cənubi Qafqazda, o cümlədən də Azərbaycanda nə 1864-cü il, nə də 1890-cı il Zemstvo əsasnamələri tətbiq edilməmişdi. XIX əsrin əvvəlrindən başlayaraq zemstvo təsərrüfatı Cənubi Qafqazda sırf bürokratik əsaslarla idarə edilirdi. 40-cı illərdə zemstvo işinin idarə edilməsini polis üçün asanlaşdırmaq məqsədilə zemstvo smeta və təqsimlərinin baxılmasında iştiraka canişinin mülahizəsi əsasında quberniya zadəganlarının başçılarının və ayrı-ayrı silklərin nümayəndələrinin cəlb olunmasına icazə verilmişdi. 1882-1884-cü illərdə zadəgan yığıncaqlarında Qafqazda ilkin olaraq zemstvoların tətbiqi haqqında məsələ qaldırılsa da, onlar öz torpaqlarının zemstvo yığımına məruz qalacağını və natural mükəlləfiyyətlərin bir hissəsinin onların öhdələrinə düşəcəyini özləri üçün təhlükə hesab edərək zemstvo özünüidarəetməsini faydalı hesab etməmişdilər.

Kəndli islahatının, məhkəmə və şəhər islahatlarının mütərəddid şəkildə də olsa Azərbaycanda tətbiqi yerli əhalidə zemstvoların da bu regionda nə vaxtsa tətbiq olunacağı inamının kök salmasına baxmayaraq, zemstvo özünüidarəçiliyinin tətbiqi məqsədli olaraq yubadılırdı. Həmin dövrdə Cənubi Qafqazın bir sıra ziyalıları tərəfindən bu qurumların qəzalarda abadlıq işlərinin aparılması baxımından faydası xüsusilə qeyd olunaraq, onların Qafqaz əhalisi üçün də xeyir gətirə biləcəyi konkret mülahizələrlə sübut edilirdi (8, 15, 16, 14).

Azərbaycanda, eləcə də Cənubi Qafqazın digər bölgələrində zemstvo özünüidarəsinin tətbiqinin praktiki əhəmiyyəti yerli idarəetmənin mərkəzsizləşdirilmiş orqanlarının formalaşdırılmasında ifadə olunurdu. Belə ki, zemstvo təsisatları dövlət hakimiyyəti orqanları sisteminə daxil deyildilər, yəni 1864-cü il Zemstvo əsasnaməsi

bu qurumların qeyri-dövləti mahiyyətini özündə ehtiva edirdi.

XIX əsrin sonlarında ictimaiyyət arasında zemstvo islahatının Cənubi Qafqazda, o cümlədən də Azərbaycanda tətbiqi üzrə müzakirələrin aparılmasına başlanıldı. Bu müzakirələr XX əsrin başlanğıcında geniş vüsət aldı və artıq hakimiyyət nümayəndələri də zemstvoların Qafqazda tətbiqi ilə bağlı mövqelərini ortaya qoymuş oldular. 1905-ci ildə, inqilabi hərəkatın geniş vüsət aldığı bir vaxtda yenidən fəaliyyəti bərpa olunmuş Qafqaz canişinliyi xalq hərəkatının təzyiqi altında, laxlayan «dayaqları» xilas etmək naminə, xüsusi zemstvo müşavirələrinə Qafqaz üçün zemstvo təsisatlarının münasib olan modeli haqqında məsələnin müzakirə olunmasını təklif etdi. Lakin bu dəfə də Qafqaz rəhbərliyi özünün sələflərinin zemstoya münasibətdə poliscəsinə, hibertrofiya hissiyyatı ilə diktə edilmiş özünüqoruma nöqteyi-nəzərindən yüksəyə qalxa bilməmiş və zemstvo islahatı vasitəsilə zemstvo özünüidarəsində təmsil olunmuş ucqarların ictimai nümayəndələrinin timsalında Qafqazda inqilabi hərəkatla, həmçinin ayrı-ayrı xalqların «separatçılığı ilə mübarizədə həqiqi yardıma malik olmağa» (14, 26) ümid bəsləmişdi. Canişin tərəfindən təqdim olunan qeydlərdə Qafqazda həyata keçiriləcək zemstvo islahatının əsas prinsipləri həm 1864-cü, həm də 1890-cı illərin zemstvo islahatlarının müqayisəli-hüquqi aspektdən təhlilinə əsaslanmış, daha çox sonuncunun, yəni zemstvo əks-islahatının əsasında duran qanunun nəzəri xüsusiyyətlərinin üzərində dayanılmış, qarşıda duran islahatla bağlı xüsusi «Əsasnamə»nin işlənilib hazırlanmasının zəruriliyi qeyd olunmuşdu (3). Bununla əlaqədar 1905-ci il iyunun 22-də və iyulun 16-da xüsusi müşavirələr keçirilmiş, həmin müşavirələrdə mərkəzi hakimiyyətin nümayəndələri, yerli administrasiya, burjuaziya və mülkədarların nümayəndələri, ən iri yerli qəzet redaktorları, ümumilikdə Cənubi Qafqazın mütərəqqi ictimai xadimləri iştirak etmişdilər (7). Çıxışçıların əksəriyyəti diyarın əhalisinin 1864-cü il Əsasnaməsi ilə ətraflı tanış etdirilməsini məqbul hesab etmişdi. Bir sıra mütərəqqi fikirli ictimai xadimlərin təklif etdikləri konsepsiyanın başlıca özəyini diyarda məskunlaşan bütün xalqların müstəqil idarəçiliyə malik olmaları təşkil edirdi. Bunlara rəğmən, 1864-cü il Əsasnaməsi hətta azərbaycan dilinə də tərcümə olunmuş və 1905-ci ilin avqustunda mətbuatda – «Kaspi», «Həyat» və «Bakı» qəzetlərində dərc edilmişdi.

Canişin tərəfindən təqdim olunan və dərc edilən «Zemstvo Əsasnaməsi»nin layihəsində ən aşağı zemstvo vahidi ümumsilki zemstvo nahiyə idarəsi olmalı idi. Mərkəzi quberniyalardan fərqli olaraq, Cənubi Qafqazda bir neçə kənd cəmiyyətindən ibarət tərkibdə xırda zemstvo vahidliyinin yaradılması nəzərdə tutulurdu. Zemstvo özünüidarəetməsinin sonrakı pillələri qismində qəza və dairə zemstvo yığıncaqları müəyyən edilirdi (10, 276). Canişinin bu layihəsi zemstvo təsisatları üzərində ciddi inzibati nəzarətin zəruriliyini diktə edirdi. Həmin nəzarət müvafiq olaraq qəza rəislərinə, qubernatorlara və Daxili İşlər Nazirliyinin Canişin Şurasındakı üzvlərinə həvalə olunurdu.

Vaxtın darlığının zemstvoların tətbiqi ilə bağlı müşavirələrin keçirilməsi üçün əsaslı hazırlığa imkan verməməsinə baxmayaraq, Azərbaycan ziyalılarının və burjuaziyasının nümayəndələri kifayət qədər fəallıq nümayiş etdirmiş və əhali arasında da həmin təsisatların mahiyyəti ilə bağlı təbliğat işləri aparılmışdı. 1905-ci il avqustun 17-də Bakı quberniyasında zemstvo təsisatlarının təşkili üzrə ilk müşavirə keçirilmişdi. Həmin müşavirədə qəza müşavirələrinin avqustun 28-də, Bakıda quberniya müşavirəsinin isə sentyabrın 9-dan 13-dək keçirilməsi qərara alınmışdı. Avqustun sonlarında keçirilmiş qəza müşavirələrində (Qubada, Cavadda, Göyçayda, Şamaxıda,

Lənkəranda) torpaq sahibləri təbəqəsinə mənsub olanlardan quberniya müşavirəsinə və Canişin şurasına nümayəndələr seçilmişdi (1, siy.1, iş 260, vv.86-90a).

Azərbaycanın digər bölgələrində – 1905-ci ilin avqustunun sonlarında Zaqatala dairəsində, Gəncə (Yelizavetpol) quberniyasının bəzi qəzalarında zemstvoların tətbiqinə həsr olunmuş müşavirələr keçirilmiş və müxtəlif mövqe və fikirlər ortaya qoyulmuşdu. Lakin Gəncə quberniyasının bir çox qəzalarında getdikcə şiddətlənməkdə olan kəndli hərəkatının təsiri altında qəza müşavirələrinin keçirilməsi mümkün olmadı ki, bu da quberniya müşavirəsinin keçirilməsini həmin dövrdə mümkünsüz etdi (8, 29-30).

1905-ci il zemstvo müşavirələrində irəli sürülən təkliflər əsasən zemstvo təsisatlarının Cənubi Qafqazın bütün bölgələrində dərhal tətbiqinin labüdlüyünü, dörd pilləli zemstvo vahidlərinin – xırda, yəni ümumsilik zemstvo vahidinin, qəza zemstvo yığıncağının, quberniya zemstvoları, vilayət (bir neçə quberniya üçün) və ya ümumdiyar (bütün Cənubi Qafqaz üçün) zemstvo məclislərinin yaradılmasını, zemstvoların senzli əsaslarla və sırf mədəni-təsərrüfat funksiyalarla qurulmasını (əsasən Bakı quberniyasının bəzi qəza müşavirələrində bu təklif üstünlüyə malik idi), eyni zamanda senzlərin azaldılmasını və ya ümumiyyətlə ləğvini, zemstvoların səlahiyyət dairələrinin genişləndirilməsini (təhsil, aqrar, kəndlilərin torpaq quruluşu, torpaq sərhədlərinin müəyyənləşdirilməsi, köçürülmə işinə rəhbərlik, suyun bölüşdürülməsi, kitab və jurnalların ilkin senzurasız nəşri, əmək büroları və münsiflər məhkəməsinin təşkili, iş vaxtının müəynləşdirilməsi, əhaliyə hüquqi və aqronomik yardımın, suvarma kreditlərinin, kredit əmanət şirkətlərinin təşkili, yeni qanunların qəbulu ilə bağlı vəsatət qaldırılması, yəni qanunvericilik təşəbbüsü hüququna və bütün qanun layihələrinin ilkin müzakirə hüququna malik olmaları və s. istiqamətlərdə) və digər məsələləri əhatə edirdi (14, 28-32). Bir çox müşavirələrdə zemstvo təsisatlarının müstəqilliyinin artırılmasının, yəni inzibati hakimiyyətin təsdiqinə və etirazına məruz qalmayan qərarların qəbulunun, zemstvo vergisini ödəyənlərin hamısına seçki hüquqlarının verilməsinin vacibliyi qeyd olunmuşdu.

Zemstvoların Azərbaycanda, bütövlükdə Cənubi Qafqazda tətbiqi ilə bağlı 1905-ci ildə həyata keçirilən tədbirlər müəyyən mənada nəticəsiz qalmışdı. Zemstvoların hərtərəfli tətbiqinin, bu qurumların müstəqil fəaliyyətinin iflasa düçar olmasını çar hakimiyyəti orqanlarının, bürokratik dairələrin öz səlahiyyətlərini heç kəslə bölüşdürmək istəməmələri, əhalinin müxtəlif təbəqələrinin idarəçilikdə müstəqil iştirakına qısqanclıqla yanaşmaları prizmasından yanaşanlar zemstvo təsisatlarını hətta «Rusiya dövlət idarəetmə arabasının beşinci təkərinə» (4, 6) bənzətmişdilər.

1909-cu ildə Qafqaz canişini yenidən yerli hakimiyyət nümayəndələrinə və cəmiyyətə diyarda zemstvo islahatının tətbiqinin mümkünlüyü ilə bağlı məsələnin müzakirə olunmasını təklif etmişdi. Qafqaz canişini özünün 1909-cu il 31 may tarixli 11.879 №-li Təmimnaməsi ilə zemstvo müşavirələrində müzakirə üçün təkliflər (17, 6-12) də irəli sürmüşdü. Həmin təkliflər zemstvo təsisatlarının modeli, onların səlahiyyətləri, tərkibi, seçki senzləri və s. qisim məsələləri əhatə edirdi. Eyni zamanda, 1909-cu ilin iyununda kütlələrin təzyiqi ilə Dövlət Duması tərəfindən Qafqazda zemstvoların tətbiqi haqqında qərar (2, siy.11, iş 67, v.13a) da qəbul olunmuşdu.

Bu proseslərin hüquqi davamı kimi həm Bakı, həm də Gəncə quberniya zemstvo müşavirələrində müzakirələr zamanı göstərilən məsələlərlə yanaşı, zemstvolara seçiləcək qlasnıların sayı, azsaylı xalqların hüquqlarının təmin edilməsi, Bakı və Gəncə quberniyası şəhərlərinin xüsusi zemstvo vahidlərinin tərkibinə daxil edilməsi,

zemstvoların səlahiyyət hüdudları və s. ilə əlaqədar əsaslandırılmış fikirlər söylənilmiş və həmin məsələlər üzrə müvafiq təkliflər ümumi qərarda öz əksini tapmışdı.

Qeyd etmək lazımdır ki, 1905-ci ildən 1909-cu ilin sonunadək əhali tərəfindən seçilən nümayəndələrin iştirakı ilə keçirilən və gələcək zemstvo islahatının layihələrinin hazırlandığı müşavirələrdə praktiki olaraq Cənubi Qafqaz regionunda yerli özünüidarəetmənin inkişaf tendensiyaları göstərilmişdi. Azərbaycandakı zemstvo müşavirələrinin fəaliyyətinin təhlili belə nəticəyə gəlməyə əsas verir ki, inqilabi əhval-ruhiyyənin gücləndiyi bir dövrdə liberal ziyalılar yerli idarəetmə və yerli özünüidarəetmə sisteminin inkişafını şərtləndirən olduqca radikal layihələr işləyib hazırlamışdılar. Belə ki, yığıncaqlarda hazırlanan və müzakirə olunan layihələr zemsvto təsisatlarının fəaliyyət sferasının genişləndirilməsini nəzərdə tuturdular. Həmin dövrdə ziyalıların əsas tələblərindən biri də yerlərdə hakimiyyətin tədricən zemstvo təsisatlarının səlahiyyətinə verilməsi idi. Bunu zemstvo təsisatlarının səlahiyyətlərinin genişlənləndirilməsi ilə bağlı çoxsaylı fikirlərdən də sezmək olar. Bu fikirlərin içərisində mərkəzin yerlərdəki nümayəndəsi qismində çıxış edən quberniya administrasiyasının ləğvinin zəruriliyi də qeyd olunurdu.

Bütövlükdə, təklif olunan layihələrin fərləndirici xüsusiyyəti kimi Azərbaycanda bələdiyyə muxtariyyətinin (baxmayaraq ki, «bələdiyyə» terminınə bu layihələrdə rast gəlinmirdi) nəzəri əsaslarının müəyyənləşdirilməsi və müvafiq sənədlərdə öz ifadəsini tapmasını göstərmək olar. Müşavirələrdə dövlət fəaliyyəti ilə yerli özünüidarəetmə orqanlarının fəaliyyəti arasında hədd qoyulmasına cəhdlər edilsə də, çox çətin ki, bu XX əsrin əvvəllərində səmərə ilə nəticələnə bilərdi. Ona görə ki, müəyyən dərəcədə diqqət Azərbaycanın ümumi dövlətin tərkibindəki hüquqi vəziyyəti, onun suverenliyi, əhalisinin hüquq və mənafelərinin təmin edilməsi ilə bağlı müvafiq konsepsiyasının işlənib hazırlanmasına yönəldilmişdi və bu məsələnin həlli kimi ilkin mərhələnin yerli özünüidarəetmə islahatının ola biləcəyi güman edilirdi. Lakin bələdiyyə muxtariyyəti özündə hər hansı milli regionun müstəqilliyini deyil, yalnız yerli kollektivlərin məlum dərəcədə müstəqilliyini ehtiva edirdi. Azərbaycan ictimaiyyəti isə yerli özünüidarəetmənin formalaşdırılması, onun inkişaf etdirilməsi və demokratikləşdirilməsi yolu ilə Azərbaycanın müstəqilliyinə nail olacağına ümid bəsləyirdi.

Zemstvo müşavirələrinin fəaliyyəti, faktiki olaraq, mürəkkəb bir siyasi məsələnin – yerli özünüidarəetmənin səmərəli sisteminin formalaşdırılması məsələsinin kollegial surətdə həllinin başlanğıcını qoymuş oldu. Bu müşavirələrin iştirakçıları özünüidarəetmə və xalq hakimiyyətini eyniləşdirirdilər və bununla da, xalq suverenliyinin aliliyi mövqeyində dururdular.

Cənubi Qafqazdakı bütün zemstvo müşvairələrinin yekunu «Zemstvo təsisatları haqqında Əsasnamənin Cənubi Qafqaz diyarına şamil edilməsi» adlı layihənin (17, 98-106) hazırlanması ilə nəticələnmişdi. Layihəyə əlavə olunan və 1909-cu il zemstvo müşavirələrinin gördüyü işlər barədə hesabat səciyyəsi daşıyan İzahnamədə (17, 106-111) müşavirələrin qəbul etdiyi qərarlar və irəli sürdüyü təkliflər ümumiləşdirilərək bu və ya digər təklifə münasibət bildirilmiş və ümumi səciyyə daşıyan məsələlərin mahiyyəti açıqlanaraq layihədə öz əksini tapmış müddəaların izahı verilmişdi.

Qanun layihəsinin 1 yanvar 1916-cı il tarixdən qüvvəyə gətirilməsi təklif olunsa da, bu iş hərəkətsiz saxlanılmışdı. 1916-cı ilin sonuna yaxın Cənubi Qafqazın zemstvo təsisatları haqqında Əsasnamənin yeni layihəsi üzərində hazırlıq işi başa çatdırılmış və o, hökumətə təqdim edilmişdi (2, siy.11, iş 67, v. 4). Lakin həmin

layihə də təsdiq olunmamış qaldı. I Dünya müharibəsinin gedişatı bütövlükdə imperiya ərazisində islahatçılıq fəaliyyətini dayandırdığından Qafqaz ictimaiyyətinin zemstvo özünüidarəçiliyinin tezliklə tətbiqi ilə bağlı ümidləri həyata keçmədi. 1917-ci ilin fevralında burjua-demokratik inqilabının qalibiyyətindən sonra köhnə zemstvo əsasnamələrindən və zemstvolarla bağlı qanun layihələrindən imtina olundu. Müvəqqəti hökumət dövründə, daha sonra isə Azərbaycan Xalq Cümhuriyyəti dövründə idarəetmə sisteminin yenidən təşkili haqqında məsələnin yeni dövrün tələblərinə uyğunlaşdırılması və burada zemstvo özünüidarəetməsinin də yeni əsaslarla qurulması qarşıya məqsəd olaraq qoyulmuşdu.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının Dövlət Tarix Arxivi, f.50 (Bakı quberniya işləri idarəsi).
2. Rusiya Dövlət Tarix Arxivi, f.1276 (Nazirlər Şurasının fondu: 1905-1917). Bakı qəz., 1905, 16 iyul.
3. Гвенетадзе Ю. Самоуправление грузинских городов (1875-1917 гг.). Дисс. …канд. юрид. наук. Тбилиси: 1980, 174 с.
4. Головачев А.А. Десять лет реформ. СПб.: 1872, 438 с.
5. İsmayılov X.C. Azərbaycanın dövlət və hüquq tarixi. Bakı: Nurlan, 2006, 720 s.
6. «Kaspi» qəz., 1905, 20 iyul.
7. Материалы по вопросу о введении земских учреждений в Закавказском крае, т.4, Материалы Елизаветпольского губернского совещания. 29 сентября 1909 г., 426 с.
8. Материалы по вопросу о введении земских учреждений в Закавказском крае. Работы губернских совещаний. 1909, т.VII, Тифлис: 1910, 519 с.
9. Мильман А.Ш. Политический строй Азербайджана в XIX – начале XX веков. Баку: Азернешр, 1966, 318 с.
10. Orucov Q. 1905-ci ildə Azərbaycanda zemstvo kampaniyası // Azərb.EA-nın Xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası. 1966, №1.
11. Полное собрание законов Российской империи (ПСЗРИ), собр.2-е, т. XXXIX, отд.2, СПб.: 1866, № 40457.
12. ПСЗРИ, собр.3-е, т. X, № 6927.
13. Семин О. Основные вопросы местного самоуправления (земская реформа на Кавказе и нефтепромышленном районе г. Баку). Баку: 1910, 109 с.
14. Туманов Г.М. Записки и статьи о введении земских учреждений в Тифлисской губернии. Тифлис: 1897, 126 с.
15. Туманов Г.М. К введению на Кавказе земского самоуправления. Тифлис: 1905, 86 с.
16. Туманов Г.М. Итоги земских совещаний на Кавказе. Тифлис: 1915, 114 с.
17. Федерализм. Энциклопедический словарь. М.: 1997, 864 с.


## ПОДГОТОВИТЕЛЬНЫЕ РАБОТЫ ПО ВВЕДЕНИЮ ЗЕМСКОГО САМОУПРАВЛЕНИЯ В АЗЕРБАЙДЖАНЕ В КОНЦЕ XIX - НАЧАЛЕ XX ВЕКОВ


**Х.С.ИСМАЙЛОВ**


## РЕЗЮМЕ


Земское самоуправление являлось одной из важных форм системы местного самоуправления в конце XIX – начале XX веков. Во второй половине XIX века на волне европейских муниципальных реформ в России была подготовлена и реализовывалась реформа земского самоуправления, которая, к сожалению, не была распространена на азербайджанские губернии и уезды. В начале прошлого века были проведены земские

совещания с целью применения земского самоуправления в Азербайджане, которые заложили основу коллегиального решения одного их сложных политических вопросов – вопроса формирования эффективной системы формирования местного самоуправления. В статье анализируется теоретические и правовые аспекты применения данной формы самоуправления в Азербайджане, выясняется суть подготовительных работ по разработке и принятию соответствующего законопроекта, в котором, прежде всего, были определены базисные основания земского самоуправления в крае.

**PREPARATORY WORKS ON TERRITORIAL SELF-GOVERNMENT INTRODUCTION IN AZERBAIJAN LATE XIX - EARLY XX CENTURIES**

**Kh.ISMAYILOV**

**SUMMARY**

The territorial (zemstvo) self-government was one of the important forms of local self-government system in late XIX – early XX centuries. At the second half of XIX century on a wave of the European municipal reforms in Russia territorial self-government reforms which, unfortunately, were not extended to the Azerbaijan provinces and districts were worked out and realised. At the beginning of the last century territorial meetings for the purpose of territorial self-government application in Azerbaijan which put in pawn a basis of a joint decision one of the most difficult political questions - the question of establishing effective system of local self-government. The article analyzes theoretical and legal aspects of application of the given form of self-government in Azerbaijan, the essence of preparatory works on the work- out and acceptance of the corresponding bill which first of all defined the principal bases of territorial self-government.